İPƏK YOLU, No.4, 2024, səh.148-155
https://doi.org/10.30546/1810-911X.2024.4.137

# XX ƏSR ABŞ ƏDƏBİYYATINDA "QADIN ƏDƏBİYYATI" FENOMENİ VƏ SİLVİYA PLATT YARADICILIĞININ ABŞ "QADIN ƏDƏBİYYATINDA" YERİ

**Günay Məmmədova**

Lənkəran Dövlət Universiteti, Lənkəran, Azərbaycan
e-mail: gunay.mammadova@lsu.edu.az

**Xülasə.** Məqalədə ABŞ ədəbiyyatında "Qadın ədəbiyyatı" fenomeni, onun mahiyyəti və əhəmiyyəti araşdırılır. Xüsusilə Silviya Plattın yaradıcılığı vasitəsilə unikal mövzular geniş şəkildə təhlil edilir, Plattın müharibədən sonrakı dövrün mühüm nümayəndəsi kimi rolu göstərilir və "Qadın ədəbiyyatı"nda qaldırılan ciddi məsələlər geniş ədəbi mənzərədə verilir.

**Açar sözlər:** "Qadın ədəbiyyatı", poeziya, "qadın dəst xətti", psixologizm, depressiya, avtobioqrafik əsər, etiraf.

**THE PHENOMENON OF "WOMEN'S LITERATURE" IN 20TH-CENTURY AMERICAN LITERATURE AND THE ROLE OF SYLVIA PLATH'S WORK WITHIN AMERICAN "WOMEN'S LITERATURE"**

**Gunay Mammadova**
*Lankaran State University, Lankaran, Azerbaijan*

**Abstract.** The article examines the phenomenon of "Women's Literature" in American literature, its essence and significance. In particular, unique themes are extensively analyzed through the work of Sylvia Platt. Platt's role as an important representative of the post-war period is shown, and the serious issues raised in "Women's Literature" are presented in a broad literary aspect.
**Keywords:** "Women's literature", poetry, "women's writing style", psychologism, depression, autobiographical work, confession.

**ФЕНОМЕН "ЖЕНСКОЙ ЛИТЕРАТУРЫ" В АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ 20-ГО ВЕКА И РОЛЬ ТВОРЧЕСТВА СИЛЬВИИ ПЛАТ В АМЕРИКАНСКОЙ "ЖЕНСКОЙ ЛИТЕРАТУРЕ"**

**Гюнай Мамедова**
*Лянкяранский Государственный Университет, Лянкяран, Азербайджан*

**Резюме.** В статье рассматривается феномен «женской литературы» в Американской литературе, его сущность и значение. В частности, на примере творчества Сильвии Платт анализируются уникальные темы. Показывается роль Платта как важного представителя послевоенного периода, а серьезные проблемы, поднятые в женской литературе, представлены в широком литературном аспекте.
**Ключевые слова:** "Женская литература", поэзия, "женский стиль письма", психологизм, депрессия, автобиографичность, исповедь.

## 1. Giriş

"Qadın ədəbiyyatı" dedikdə bir qayda olaraq "qadınlar üçün yaranmış və məhz qadınlara ünvanlanmış" ədəbi əsərlər nəzərdə tutulur. Lakin, bu məfhum daha geniş və dərin məna daşıyır. Belə ki, qadın yazıçılar bütün xalqların tarixində mövcud olub, yazıb-yaradıb və onların yaratdığı əsərlər digər əsərlərdən nə fəlsəfi, nə bədii, nə də qaldırılan problemlər baxımından geri qalmırdı, hətta bir çox hallarda üstün olurdu. Bu üstünlük əsərdə qaldırılan problemlərin sırf qadın dünyagörüşü, qadın psixologiyası və hissiyatı, analıq və ailə mövqeyindən araşdırılmasından və müəllifin yeni, hətta gözlənilməyən nəticələr çıxarmasından irəli gəlirdi. Zaman keçdikcə, qadınlar cəmiyyətdə daha çox hüquq və imkanlar əldə etdikcə onların yaradıcılığa meylliliyi daha qabarıq şəkildə üzə çıxır, özünü parlaq əsərlərdə nümayiş

etdirirdi. Lakin, "qadın ədəbiyyatını" qadın yazısından ayırmaq lazımdır ki, bu da qadınların yazdığı ədəbiyyat deməkdir (xüsusi olaraq qadınlar üçün nəzərdə tutulmuş ədəbiyyat deyil). Ümumiyyətlə, ədəbiyyatda "qadın dəst xətti" adlanan bir məfhum var. Həmin "dəst xətt" özünü həm üslubda, həm əsərdə qaldırılan problemlərin həllinə yanaşmada, nəhayət onların həll olunması yollarında özünü biruzə verir. Onu da nəzərə almaq lazımdır ki, XX əsrdə qadınların rolu cəmiyyətdə fəallaşır və onların hüquq bərabərliyi yaradıcılıqda da özünü nümayiş etdirirdi.

ABŞ ədəbiyyatında qadın yazıçılar daim fəaliyyət göstərib və maraqlı əsərlər yaradıblar. "The Romance Writers of America" "qadın ədəbiyyatı" məfhumunu belə təyin edir: "Həyat dəyişikliyi və şəxsiyyət kimi böyümə ərəfəsində olan qadınlar haqqında nəzərdə tutulmuş bir roman. Bu cür əsərlər qadının həyat mövqeyini, onun emosional durumunu, düşüncələrini, eləcə də onu və başqa, ən fərqli insanlarla münasibətlərini dəyişdirən hərəkətlərini təfərrüatlandırır və romantik münasibətləri ilə bağlı ümidverici, optimist sonluğu ehtiva edir" [7, s.91]. Bununla bağlı çox mühüm məqam qeyd edilməlidir - ABŞ ədəbiyyatı Qərbi Avropa ədəbiyyatından, Avropa Maariflənmə fəlsəfəsindən bəhrələnib, bu cəhət təbii ki, ABŞ ədəbiyyatına müstəsna təsir göstərmişdi. ABŞ ədəbiyyatı nisbətən "gənc" bir fenomendir, digər tərəfdən, ABŞ ədəbiyyatında gedən proseslərin Avropa ədəbiyyatından bəhrələnməsinə baxmayaraq, ABŞ özünəməxsus bir ədəbiyyat yaratmağı bacarmışdı. Və təbii ki, həmin ədəbiyyatda qadın yazıçıları da çox böyük rol oynamışdılar.

XX əsr ABŞ ədəbiyyatı çox nəhəng adlarla təmsil olunur - Frensis Skott Fiscerald, Ernest Heminquey, Uilyam Folkner, Tennessi Uilyams, Yucin O'Nil və başqaları. Həmin sırada qadın yazıçıların da adları çəkilməlidir - Marqaret Mitçel, Maya Encel, Anna Bredstrit, Marta Gelhorn, Silviya Platt. Bir qayda olaraq, XX əsr ABŞ ədəbiyyatı iki mərhələ çərçivəsində tədqiq olunur - XX əsrin I yarısı və II Dünya Müharibəsindən sonrakı dövr. Müharibədən sonrakı dövrün ədəbiyyatından söhbət açarkən, Silviya Plattın yaradıcılığı xüsusən qeyd edilməlidir. Yaşlı nəslin, öz valideynlərinin həyat kredosuna etiraz motivləri Silviya Plattın artıq tələbəlik illərində, Smit Kollecində (1950-1955) təhsil aldığı dövrdə yaratdığı şeirlərində özünü büruzə verir və ölümündən sonra nəşr edilən ilk şeirlər toplusunu da məhz həmin şeirlər tamamlayır. Laqeydlik və istehlakçılıq mühitində daxili tənhalıq və mənəvi narahatçılıq hissi ilə güclü şəkildə bağlı olan bu motivlər o zaman gənclər arasında geniş yayılmış hissləri ifadə edirdi. S. Plattın yaradıcılığı "tövbə", "etiraf" xarakteri daşıyırdı və o, avtobioqrafiyanı öz yaradıcılığının, poeziyasının əsas bədii prinsipin səviyyəsinə yüksəltməyə üstünlük verirdi. S. Platt ABŞ-ın gündəlik həyatında özünü tam yad adam kimi hiss edirdi. Onun əsərlərinin əsas mövzusu ümumi yadlaşma və laqeydlik mühitində insan mehribanlığı, münasibətdə harmoniya axtarışı idi. Simasızlığa qarşı nifrət və standartlaşmaya qarşı üsyan Plattın şeirlərində şərin və zorakılığın hər şeyə qadir olması qorxusu ilə birləşir. Plattın təsvirləri demək olar ki, həmişə simvolikdir, bu da onların interpretasiyalarının müxtəlifliyindən irəli gəlirdi. S. Plattın yazdığı şeirlərin emosional tonu, adətən, tutqun, hətta qəddardır. Şairənin reallıqdan ağrılı şəkildə qopması, ayrılması onun poeziyasının əsas mövzularından biridir. Məhz bu cəhət S. Plattı romantiklərin ifadə etdiyi dünyagörüşünə, yaradıcılıq prinsiplərinə yaxınlaşdırır. Bununla

yanaşı, həm sərbəst şeirin ritmi, həm də Plattın özünəməxsus, qeyri-adi poetik leksikonu, burada arxaik və ya sırf “kitab” sözləri, ifadələri və jarqon elementləri arasında ziddiyyət təşkil etdiyindən, şairin yaradıcılığını müasir ABŞ poeziyasının panoramasına üzvi şəkildə daxil olur.

1956-cı ildə Kembricdə Fulbrayt təqaüdçüsü olan Platt ingilis şairi Ted Xyuzla (Ted Hughes) tanış oldu və onunla ailə qurdu. Lakin İngiltərədə onun ətrafında gördüyü dünyaya yad olması hissi getdikcə ruhi xəstəlik xarakteri alaraq daha da güclənirdi. Digər tərəfdən ailəsinin dağılması da ona çox güclü mənfi təsir göstərmişdi. Təsadüfi deyil ki, faciəli intihardan əvvəl yazılan şeirlərdə ölüm motivi üstünlük təşkil edir.

S. Plattın ilk şeiri 1941-ci ildə “Boston Herald” qəzetinin uşaq bölməsində çap olunmuşdu. Həmin şeir “Poem” adlanırdı və gənc şairə həmin şeirin məzmununu “İsti yay gecələrində gördüklərim və eşitdiklərim haqqında” kimi izah edirdi. Həmin şeirdə artıq Silviyanı öz yaşıdlarından fərqləndirən dərinlik, hətta kədər duyulurdu. Həmin kədər ilk növbədə ailədə yaranan problemlərlə bağlı idi. Atasının vəfatından sonra Silviyanın anası Aurelia Platt 1942-ci ildə Boston Universitetində bir vəzifəyə qəbul edildi və ailəsini (öz valideynləri də daxil olmaqla) Uintropdan Uellesliyə, “Elmwood Road 26” ünvanında yerləşən yeni evə köçürdü. Burada Silviya həmyaşıdları ilə oxumaq üçün yenidən orta məktəbin beşinci sinfinə daxil oldu (bundan əvvəl o, özündən bir yaş böyük uşaqlarla oxuyurdu). Anası Aureliya inanırdı ki, bu qızına atasının itkisi ilə bağlı keçirdiyi stressdən çıxmağa kömək edəcək, lakin Silviyanın depressiyası dərinləşirdi. Silviya hətta atasının ölümünün gizli intihar olduğuna inanırdı, çünki atası müalicə almağa razılıq versəydi, onun xəstəliyinin qarşısı alına bilərdi. Aurelia Platt uşaqlarını, ailəsini maddi cəhətdən təmin etmək üçün iki işdə çalışırdı, lakin Silviyanın gündəliklərindən hiss olunur ki, qızcığaz uşaq ikən anasına qarşı ürəyində nifrətə yaxın hisslər bəsləyirdi. Bredford Liseyində (Gamaliel Bradford Senior High School) təhsil aldığı bütün illər ərzində Silviya “ulduz şagird” sayılırdı: o, yalnız əla qiymətlər alır, İngilis dilində, xüsusən də məktəb kursunun yaradıcı hissəsində parlaq nailiyyətlər nümayiş etdirir, imtahanları uğurla verirdi. Eyni zamanda, o, həm də “The Bradford” məktəb qəzetinn baş redaktoru idi. Bütün bu müddət ərzində Platt davamlı olaraq hekayələr yazır və onları məşhur qadın və gənclər jurnallarına göndərirdi. Smit Kollecinə daxil olanda o, artıq əllidən çox hekayənin müəllifi idi. Lakin həmin dövrdə Silviya həm də özü üçün çox ağır bir kəşf etdi - o şeirlərini göndərdiyi nəşriyyatlardan altmışdan çox rədd məktubu almışdı. Bununla belə, Silviyanın nəşr olunan hekayələri də var idi: ümumilikdə, məktəb illərində onun əsərləri doqquz dəfə nəşr olunmuşdu və ailəyə müəyyən gəlir gətirmişdi. 1949-cu ildə S. Plattın “The Atlantic Monthly” jurnalında sinif yoldaşı ilə birgə yazdığı “Çılğın dünyada mənalı həyat” adlı məqaləsi dərc edildi. Əvvəlki nəşrdə həmin məqaləyə cavab verən gənc müəlliflər müasir insanın məntiqə söykənərək yaşamalı olması tezisini təkzib edir və insan həyatında mənəvi və duyğu komponentlərinin vacibliyi ideyasını irəli sürürdülər. Bundan əlavə, S. Platt rəssamlıq istedadını da nümayiş etdirirdi: 1947-ci ildə o, “The Scholastic Art & Writing Awards” rəsm müsabiqəsinin laureatı oldu.

1950-ci ildə yazıçı Oliviya Higgins Proutinin dəstəyi ilə S. Platt Massaçusets ştatının Northampton şəhərindəki nüfuzlu qadın institutu olan “Smith College”də təhsil almaq üçün qrant əldə edir. Tələbə olduğu zaman Silviya Platt Oliviya ilə uzun illər davam edən məktublaşmağa başladı. Platt tələbə olduğuna çox sevinirdi, bununla belə, o, kollecdə onu əhatə edən mühitin təzyiqini dərhal hiss etdi: təzyiq həm ciddi akademik tələblərdə, həm də sosial həyatda özünü nümayiş etdirirdi.

S. Plattın 1944-cü ildə yazmağa başladığı şəxsi gündəliklər kollecdə onun üçün xüsusi əhəmiyyət kəsb edirdi - gündəlik bir tərəfdən fikirlərini bölüşmək, etiraflar üçün bir vasitə oldu, digər tərəfdən ilham mənbəyinə, gənc şairənin daim müraciət etdiyi təzə təəssüratların sənədli sübutuna çevrildi. Gündəliyinin səhifələrində Silviya şeir və hekayələrin eskizlərini çəkib, yaradıcı planlar hazırlayırdı. Plattın tələbə dövrü şeirləri həm ritm tarazlığı, həm də rəngarəngliyi ilə seçilirdi; o, heca və şeirin quruluşu üzərində çox işləyir, misra texnikasına xüsusi diqqət yetirir, hər misrasını ideal vəziyyətə gətirməyə çalışırdı. Məhz o zaman Silviyanın mükəmməlliyə can atması və bunun mümkünsüz olmasını dərk etməyindən irəli gələn özünə inamsızlıq hissi onun təbiətində çox güclü ziddiyyətə səbəb olmuşdu. Silviya öz gündəliyində yazırdı: “Mən heç vaxt rəsmlərdə, şeirlərdə və hekayələrdə can atdığım mükəmməlliyə nail olmayacağam”. Mükəmməliyə can atan S. Platt İngilis dilinin akademik leksikasından əlavə, gənc şairlərin - Dilan Tomasın, Uolles Stivensin, U.H. Audenin, Riçard Uilburun, Marianna Murun və Con Krou Ransomun əsərlərini dərindən öyrənirdi [1, s.112].

1950-ci ildən başlayaraq Silviya Plattın əsərləri dövri mətbuatın ümumilli miqyaslı orqanlarında nəşr edildi. Həmin dövrdə “Christian Science Monitor” jurnalında “Gənclərin Dünyanı Sülhə Çağırışı” adlı məqalə, ondan sonra “Acı çiyələklər” (“Bitter Strawberries”) şeiri dərc edildi. Plattın “Yay Bir Daha Gəlməyəcək” (And Summer Will Not Come Again ) hekayəsi “Seventeen” jurnalının 1950-ci ilin avqust sayında dərc olunmuşdu. 1953-cü ilə qədər S. Platt bir neçə yerli qəzetlə, xüsusən də “Daily Hampshire Gazette” və “Springfield Union” ilə əməkdaşlıq edib. Daha sonra “Springfield Union” jurnalı S. Plattı Smit Kollecində xüsusi müxbir kimi işə cəlb etmişdi. Beləliklə, kollecin birinci kursu Silviya üçün ciddi sınaq oldusa (İngilis dili müəllimi ona mütəmadi olaraq “B” qiymətini verirdi), ikinci kurs çox uğurlu alındı.

Platt üçüncü kursu bitirdikdən sonra yay tətilində ilk uğurunun sevincini yaşayırdı. Gənc qız, o zaman “Mintonlarda bazar günü” hekayəsi “Mademuazel” (Mademoiselle Fiction Contest) jurnalının keçirdiyi müsabiqədə birincilik mükafatını qazandı və bundan əlavə Nyu-Yorkdakı 575 Madison nəşrində ştatdankənar redaktor kimi bir aylıq təcrübəyə dəvət aldı. Bir qrup digər qalib iştirakçı ilə birlikdə S. Platt Barbizon otelində qalırdı. Sonradan, o zaman baş verən hadisələr onun “Şüşə qapaq altında” romanında ətraflı təsvir edilmişdi (otel romanda “Amazon” adı ilə təqdim olunur).

S. Platt Nyu-Yorkdan həm emosional, həm intellektual, həm fiziki cəhətdən çox yorğun qayıtmışdı. Bütün bu müddət ərzində, yəni əldə etdiyi uğurlara baxmayaraq o, yaradıcılığının böhranını yaşayır, onun daxili vəziyyəti ağır idi, eyni “sönməz mükəmməllik arzusundan” qaynaqlanan depressiya və qorxuları güclənirdi. Bu, müəyyən mənada hadisələrin sonrakı

gedişatını əvvəlcədən müəyyənləşdirdi: Silviya gündəlik yazmaqdan imtina etdi, onun yuxusu çəkilib, oxumaq və yazmaq qabiliyyəti xeyli zəifləmişdi. Aurelia Platt yazırdı ki, qızı ancaq bir kitabı - Ziqmund Freydin "Patoloji Psixologiya" kitabını oxuyurdu. 1953-cü ilin taleyüklü yayının bütün təfərrüatları Silviyanın bir neçə məktubunda və "Şüşə qapaq altında" romanında öz əksini tapmışdı [7, s.83].

Silviyanın mürəkkəb psixoloji durumunu görən dostu Olivia Higgins Prouti Silviya Plattın Belmontda yerləşən McLean Klinikasına müalicə almaq üçün qəbul edilməsinə kömək etdi. Burada S. Platt dövrü üçün ən müasir elektrokonvulsiv terapiya seansları ilə müalicə olundu. Bir vaxtlar özü də psixoloji sarsıntı keçirən Olivia Higgins Prouti S. Plattın klinikada qalması üçün pul ödəyirdi. Silviyanın sağalmağı asan olmadı və uzun müddət çəkməsinə baxmayaraq, 1954-cü ilin yazında Platt yenədə "Smith College"ə qayıtdı. Bəzi tənqidçilərin fikrincə, Plattın əsl poetik istedadının formalaşması məhz bu günlərdə başlayıb. Elə həmin il (1954) Platt onun yaxın dostu olan Riçard Sassoon ilə tanış oldu və eyni zamanda köhnə arzusunu həyata keçirdi: o, Harvardda yay ədəbi kursuna daxil oldu və o günləri Massaçusetsdə Nensi Hanter-Ştaynerlə birlikdə yaşadı. Platt həyatında həmin dövrdə baş verən hadisələri "Şüşə qapaq altında" romanında da kifayət qədər ətraflı təsvir etmişdi.

Kolleci müvəffəqiyyətlə bitirdikdən sonra Silviya Platt "Sehrli güzgü: Dostoyevskinin yaradıcılığında ikililik" adlı dissertasiyasına görə Fulbrayt qrantına layiq görüldü və həmin qrant onun Kembricdə təhsilini davam etdirməyi üçün imkan yaratdı. Şəhər də, universitet də S. Platta çox xoş təəssüratlar bağışlamışdı. Məlum oldu ki, onun daxil olduğu "Nyunham Kollec"də akademik proqram, ümumiyyətlə, "Smith College"nin proqramından daha sadə idi: iki il ərzində Silviya, müstəqil təhsil almalı, verilmiş mövzular üzrə həftəlik esselər təqdim etməli və kuratorla məsləhətləşmələr aparmalı idi. Artıq payızda S. Platt Teatr Klubunun (ADC) üzvü olmağa və hətta səhnədə kiçik bir rol - "dəli şairə" rolunu oynamağa cəhd etdi. S. Platt öz şəxsi gündəliyində bu haqda belə yazırdı:

"Düşünürəm ki, mən Amerikanın Şairi adına uyğun gələn şeirlər yazmışam... Rəqiblərim kimlərdir? Keçmiş: Sapfo, Elizabeth Brouning, Christina Rossetti, Emi Louell, Emili Dickinson, Edna St. Vincent Millay - hamısı ölüb. İndi: Edit Situell və Marianna Moore, iki qocalmış nəhəng... Həm də Adrienna Rich... Amma tezliklə mən onun da yerini dar edib, həmin cərgədə duracağam" [6, s.173].

1960-cı ilin əvvəllərində Hughes ailəsi Londonun ətrafında Primrose Hill ünvanında (3 Chalcot Meydanı) məskunlaşdı. Platt burada naşir Heinemann ilə görüşdü və oktyabrın 31-də işıq üzü görən "The Colossus & Other Poems" toplusunun nəşri üçün müqavilə imzaladı. Kitab haqqında rəylər ümumiyyətlə müsbət idi. Ancaq bir tərəfdən kitabın nəşri ilə bağlı yaranan əngəllər, digər tərəfdən qızının doğulması ilə bağlı əngəl (Frida Rebekka apreldə anadan olub) Plattı növbəti dəfə problemlə üzləşdirdi: onun yazmağa nə vaxtı, nə də daxili qüvvəsi yox idi. Bütün 1960-cı il ərzində o, cəmi 12 şeir (sonradan məşhur "Sən, Şamlar" və "Asılı Adam" daxil olmaqla) yaratdı. Digər tərəfdən S. Platt nəsrə qayıtdı: o "Uğur Günü" və "Şanslı Daş"

hekayələrini yazdı. 1960-cı ilin sonunda Platt yenidən hamilə oldu, 1961-ci ilin fevralında gələcək övladı tələf oldu, sonra isə özü əməliyyat olundu. Beləliklə, Platt 1961-ci ilin də demək olar ki, bütün qışını xəstəxanada keçirdi. Onun burada qalmasından aldığı təəssüratlar "Lalələr" ("The Tulips") və "Gips içində" ("In Plaster") poemalarının əsasını təşkil etdi və bundan əlavə, yeni əsərini başlamasına ilk təkan oldu. 1961-ci ilin mart ayında Silviya Platt "Şüşə qapaq altında" ("The Bell Jar") romanı üzərində işləməyə başladı və yetmiş gün ərzində dayanmadan həmin kitabı yazdı. Noyabr ayında o, artıq tamamlanan ilk romanı üçün Eugene F. Saxton Fellowship-dən 2000 dollar aldı. 17 yanvar 1962-ci ildə Platt və Hughesin Nikolas adlı oğlu dünyaya gəlir. Aprel ayından başlayaraq şairə misli görünməmiş bir yaradıcılıq coşqunluğu yaşayırdı; onun qələmindən sonralar "Ariel" toplusuna daxil edilmiş və çoxları tərəfindən onun irsinin zirvəsi hesab olunan şeirlər çıxdı ("The Rabbit Catcher" və b.). İlham partlayışı ailə problemlərinin kölgəsində qaldı (Silviya Teddin ona xəyanət etməsindən şübhələnirdi). Həmin daxili durum onun, keçirdiyi hisslər o zaman yazdığı şerlərində - "Anlaşılanlar və Hadisələr" əks edilirdi. Problem onun İngiltərədə heç bir yaxın adamının olmaması ilə çətinləşdi; Amerikalı dostlarına məktublar yazmaq üçün isə çox vaxt sərf etmək lazım idi.

Mayın 14-də ABŞ-da Knopf nəşriyyatında Plattın "Koloss və digər şeirlər" ("The Colossus and other Poems") adlı toplusu nəşr olundu; şairənin xahişi ilə bəzi şeirlər (tənqidçilərin fikrincə, məhz Teodor Retkenin təsirini gördükləri şeirlər) Amerika nəşrinə daxil edilməyib. Topluya yazılan tənqidi rəylər az oldu və çıxışlar ehtiyatlı idi; buna baxmayaraq, Silviya anasına göndərdiyi məktubda yazırdı: "Bu, mənim həyatımın ən dolğun və ən xoşbəxt vaxtıdır" [6, s.93]. Həmin günlərdə Platt "The Bell Jar" ("Şüşə qapaq altında") əsərinin davamını yazmağa başladı: əsər İngiltərədə ilk dəfə sevgi hissini yaşayan və burada evlənən amerikalı bir qızın hekayəsi idi. Şairə avqustda yoldaşına ad günü üçün təxmini eskiz çəkməyinə ümid edir. Yəni, zahirən Silviyanın həyatı artıq müsbətə qarşı dəyişir və onun ailəsində qarşılıqlı anlaşma ab-havası yaranmışdı. Lakin Silviyanın yanına gələn anası dərhal başa düşdü ki, qızının həyatı məktublardan göründüyü qədər rahat və gözəl deyil və onun həyat yoldaşı ilə münasibəti gərgindir. Platt bir müddət idi ki, Hyucun onu aldatdığından şübhələnirdi; iyun ayında o, bunun təsdiqini aldı və emosiyalara uyub, yarımçıq qalmış romanının əlyazmasını yandırdı. Bir müddət sonra Silviya minlərlə məktubu - həm ona, həm də anasına yazdığı məktubları, həm də çoxsaylı şeir qaralamalarını məhv etdi. Onun yeni əsərlərindən biri də məhz "Məktubları yandırmaq" adlanırdı. 1962-ci ilin sentyabrında münasibətlərini bərpa etmək ümidi ilə Ted və Silviya İrlandiyaya tətilə getdilər və burada Kleqqanda, Riçard Mörfiyə məxsus "Old Forge" malikanəsində qalırlar. Sonradan məlum olduğu kimi, Hyuc qəflətən, tələsik malikanəni tərk edərək, çox gözəl görünüşlü məşuqəsi Aza Qutman Vevilin yanına getmişdi (Aza Qutman Vevil alman əsilli sosialist, kanadalı şair David Vevillin xanımı idi). Bütün bu hadisələr Silviya Plattın psixoloji durumuna çox ağır təsir göstərmişdi və emosional vəziyyətinə düşən S. Platt 11 fevral 1963-cü ildə intihar etdi.

Silviya Plattın "Şüşə qapaq altında" romanı Viktoriya Lukas təxəllüsü ilə nəşr olundu. Əsər tənqidçilər tərəfindən yüksək qiymətləndirilmişdi, sonradan kitab müxtəlif onilliklərin

gənc oxucuları üçün bir etirafa çevrildi. 1970-ci ildə, yəni romanın ABŞ-da müəllifin (Plattın) öz adı altında nəşrindən bir qədər əvvəl Silviya Plattın anası Aurelia "Harper & Row" nəşriyyatı ilə danışıqlarında romanın nəşri ilə bağlı çox acı bir etiraf etmişdi. O, qızının ölümündən sonra romanın sadəcə pul qazanmaq üçün yazılmış bir əsər olduğunu düşünmədiyini və Silviyanın özünün əsl adı ilə nəşr olunmasını heç vaxt istəmədiyini iddia etdi. Ananın dediyinə görə, kitabı yazmaqda məqsəd "zəngin əyri aynadan dünyanın necə göründüyünü" göstərmək olub. O, həmçinin Silviyanın eyni dünyanı sağlam bir insanın gözü ilə göstərəcək bir əsər yazmağı planlaşdırdığını da demişdi.

"Şüşə qapaq altında" romanı avtobioqrafik əsər hesab olunur. Romanda hadisələr Nyu-Yorkda, bəzən də Boston şəhəri ətrafında cərəyan edir. Romanda universitetdən məzun olduqdan sonra jurnalist karyerasına başlayan on doqquz yaşlı Ester Qrinvudun həyatında altı ay ərzində baş verən hadisələrdən bəhs olunur. Gənc Ester şair olmaq və dünyanı gəzmək arzusu ilə yaşayır. Ester həyatda, cəmiyyətdə məyusluqla üzləşir, özünə və gələcəyinə inamını itirir. Daim "bu dünyada mənim yerim nədir" deyə düşünərək depressiyaya düşür. Kitab öz "mənini" və şəxsiyyətini tapmaq, normal həyata qayıtmaq kimi çətin yoldan bəhs edir. Müəllif dönə-dönə göstərir ki, bu çətin yolda hər şey olacaq: əsəb böhranları, xəstəxana, hətta intihar cəhdləri. Baş qəhrəman XX əsrin 50-ci illərində qadınların cəmiyyətdəki yeri və rolu ilə bağlı qərəzli çıxışlarla üzləşir, daim onlarla məşğul olur. Həm ailə, həm də cəmiyyət ona təzyiq göstərir ki, bu da istər-istəməz psixoloji pozulmalara, şəxsiyyət böhranına gətirib çıxarır. Oxucular üçün romanı yazıçının faciəvi hekayəsindən, onun heyrətamiz poeziyasından, romanın ilk nəşrindən cəmi bir ay sonra depressiya ilə mübarizəsi, çətin boşanma və intihar hekayəsindən ayrı qəbul etmək çətindir. Silviya Plattın həm tərcümeyi-halı, həm də sirli şəxsiyyəti hətta tənqidçilər və alimlər tərəfindən romanın qavranılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, tənqidçilər romanın ciddi ədəbi əsər kimi qiymətləndirilməli, yoxsa əsl peşəsi poeziya olan müəllifin yazdığı bədii əsər kimi təsnif edilməli olduğu barədə bu günə qədər mübahisə edirlər. "Şüşə qapaq altında" romanı alimlər arasında Silviya Plattın poeziyasından daha az maraq doğurmuşdu, baxmayaraq ki, bəzi məşhur ədəbiyyatşünaslar romanı Amerika ədəbiyyatının mühüm əsəri kimi qiymətləndirirdilər. Feminist ədəbi tənqidin nümayəndələri 1950-ci illərdə qadınların sıxışdırılmasını tənqid edən və pisləyən romanı bir növ öz manifestinə çevirdilər.

## Ədəbiyyat

1. Quliyev Q. (2019), Ədəbi cərəyanlar və istiqamətlər. Bakı, 260.
2. Quliyev Q. (2022), Açırıq qapıları, örtürük qapıları, keçirik qapılardan. Bakı, Alatoran, 414.
3. Qurbanova Ş. (2014), Amerika ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığında. Naxçıvan.
4. Spankeren K.V. (1998), Amerika ədəbiyyatının xülasəsi. Kristofer Little, 69.
5. Ализаде А. (2017), Женское мировосприятие и его художественная реализация в прозе современных Русских и Английских писательниц. Баку, Мутарджим, 158.

6. Писатели США (1990), Москва, Радуга, 622.
7. Гафарова С.А. (2009), Понятие женского творчества. Гендер и Филология. Баку, Мутарджим, 164.
8. Литература США XX века: Опыт типологического исследования. Москва: Наука, (1978), 173.
9. Мамедханова Н., Ализаде А. (2018), Женский почерк в современной литературе. Баку, Мутарджим, 158.